ədalət.- 2023.- 31 mart.- S.6.



Seyran Səxavət

# Asta yeri, tabut düşər çiynindən...

## Zakir Fəxriyə şanlı məktub

**Əziz qardaşım, Zakir Fəxri!**

**Sənin əziz adam olduğunu hamı bilir - çünki sən tale adamısan, tale adamı olmayanları heç vaxt əzizləmirlər və onlar da heç vaxt əziz ola bilmir. Əgər sən tale adamı olmasaydın, əgər tale səni öz doğması bilməsəydi, heç vaxt səni belə ağır sınağa çəkməzdi- tale etibarına bax də...**

Sənin qardaş olduğunu çox adam bilməsə də ikimiz yaxşı bilirik, bir beldən gəlmişik - Sözün belindən.

Allahdan gizlin deyil, oxucudan nə gizlin. Xristianların ölüsü düşəndə özlərinə əziyyət verməmək üçün yemək - içmək məsələsini hadisə yerindəcə həll eləyirlər. Bizlər isə əvvəlcə hüzr sahibinə baş sağlığı verib çadırdan çıxırıq, sonra da gedib yasdan çıxırıq.

Yenə restoranların birində yasdan çıxırıq. Dörd nəfərik. Akademik, uşaqlıq dostum Hətəm Quliyev, Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Rəhimoğlu, Zakir Fəxri və mən. Təxminən iki yüz - iki yüz əlli qramlıq məsafə qət eliyəndən sonra könlüm şeir istədi. Hətəm Quliyev ömründə bir misra da şeir yazmayıb, heç yaza da bilməz, qabiliyyəti çatmaz. Umud Rəhimoğlu isə Moskvadakı Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun poeziya şöbəsini bitirsə də, bilirdim ki, çoxdandı şeir yazmır. Kimə müraciət etməliydim? Zakir Fəxriyə. O da ki, belə şeylərdə üzüyoladı. Xahiş elədim, sözümü yerə salmadı, çünki bilir ki, söz yerə düşəndə cingildəyib şüşə kimi qırıq-qırıq olur. O, üç şeir oxudu. Birinci şeir - "Çiynimdə tabut gəzirəm" məni necə tutdusa, Zakirin sonra oxuduğu ikinci və üçüncü şeirə qulaq asa bilmədim, nəzakət xətrinə başımı silkələyir, hərdən də baş barmağımı dikəldib ona göstərirdim. Bəlkə də "Çiynimdə tabut gəzirəm"dən sonra ya uzun bir fasiləyə ehtiyac vardı, ya da, ümumiyyətlə ikinci, üçüncü, şeiri oxumaq lazım deyildi - dəqiq bir şey deyə bilmərəm, heç özüm üçün də aydınlaşdırmamışam, sizə nə deyim ki...

Hər birimiz öz adamlığımız boyda bu şeirdən mütəəssir olmuşduq - elə təsirlənmişdik ki, ortalığa çökən sükut boyda... Mən şəxsən birinci şeirin sükutunda ilişib qalmışdım və heç kəs öz xoşumla olmadan məni ordan qopara bilməzdi. Böyük Yaradanın yazdığına Böyük Yaradanın özü boyda hörmət və ağılla yanaşan Zakir Fəxri, Allahın ona ənam kimi verdiyi dərdin eşqiylə göz yaşında qüsl eləyə-eləyə yer üzündəki bəndə çoxluğundan imdad diləmədən ən ağır yükün altında doğulubmuş kimi deyir:

*Alışdım tək daşımağa,*
*Çiynimdə yük daşımağa,*
*Yer yox bir tük daşımağa,*
*Çiynimdə tabut gəzirəm.*

Qardaşım Zakir. Kim dərdini tək daşıyırsa, o zaman Dərd xoşbəxt olur - çünki dərd kütləviləşmir, kütləviləşən kimi bütün ağırlığını da, sambalı ilə bərabər mənasını da itirir - ölür. Sən ölüdaşıyan deyilsən ki, dərddaşıyansan...

Yorulmayasan, Zakir Fəxri!

*Dolaşıram dağı-daşı,*
*Nə zər, nə yaqut gəzirəm.*
*Düyün-düyün yollarımı*
*Aça-aça oxuyan, bir*
*Kökdən düşmüş ud gəzirəm.*
*Çiynimdə tabut gəzirəm.*

Dağ-daş sənin dərdindən-yükündən öz payını götürür, ona görə özün də bilmədən dağı-daşı dolaşırsan.

Nə zər, nə də yaqut gəzirsən - düz eləyirsən, bilirsən ki, nə onları sənə verən olacaq, nə də ki, səndə onları tapmaq təpəri yoxdu - təpər yoxdursa, onlar da yoxdu.

Kökdən düşmüş bir uda pənah aparmaq istəyirsən ki, Taleyin öz əllərilə düyünlədiyi yollarını açsın - nə olar, insan istəyidi; ancaq Ud bilsə ki, sənin yollarını düyünləyən Taledi cavab çox qısa olacaq: Mən Taleyin işlərinə qarışmıram.

*Gəzirəm dörd bir tərəfi,*
*Bilmirəm yolum haradı,*
*Çəkir məni sirr tərəfi...*
*Ölümü gördüm deyəsən*
*Görəsən olum haradı?*

Dərs kitablarının dediyinə şübhə eləməsək, dünyadakı bütün cisimlərin xüsusi çəkisi var və hamısı da bir-birindən fərqlənir. Sənin şeirinin əhatəsində isə dünyadakı cisimlərin içində xüsusi çəkisinə görə ən ağır olanı elə çiynində gəzdirdiyin tabutdu. Çiynində dünyanın ən ağır cismini - tabutu gəzdirə-gəzdirə dörd bir tərəfi gəzib dolaşmaq adamdan, kişidən, lap elə, necə deyiblər, lirik qəhrəmanın özündən böyük qeyrət və təpər istəyir. Bunların ikisi də səndə var; Bu, sənin qismətindi. Ölümdən qaçmaq, aralanmaq, onunla təhlükəsiz məsafədə dayanmaq, baş girləmək də müstəsna hallarda mümkün olub-belə bir nəzəriyyə də var - ancaq qismətdən qaçmaq mümkün olmayıb. Əslində isə qismətdən qaçmaq isə qismətə goğru qaçmaq deməkdir.

Deyirsən ki, "bilmirəm yolum haradı". Yollar, milyon illərdi ki, hara gedib çıxacaqlarını mənzil başına qədər dəqiqləşdiriblər. Ancaq hara gedəcəyini bilməyən adam bu yollarla gedəndə yolları da çaşdırırlar. Bu misradakı ovqatından belə çıxır ki, yolları çaşdıranlardan biri də sənsən, Zakir Fəxri. Dünyanın yolları çaşanda isə aləm bir-birinə qarışır, hər şey pırtdaşıq düşür - eynilə sənin içindəki kimi...



"Çəkir məni sirr tərəfi..." İnsan ancaq reallıqdan yorulanda, yorulub tükənəndə, tükənib halsızlaşanda, özünün varlığını hiss eləmək və buna az da olsa inanmaq üçün sirli-sehirli bir tərəfin içində olmaq istəyir ki, bu da insani olduğu qədər də başa düşüləndir, bəraəti var. Və bu ovqatda Ölüm insanın gözünə görünə bilər - özü də qığılcım kimi yox, böyük bir ərazi kimi. Sən də bunu təsdiqləyirsən, deyirsən ki, "Ölümü gördüm deyəsən, görəsən ölüm haradı?"

Başa düşülən, başa düşüldüyü qədər də qəbul olunandır ki, insan ölüm adlı ərazidə mıxlanıb duranda və yaxud bitib qalanda nə istəyəcək:

*Suyuna dodaq dəyməmiş,*
*Köksünə ayaq dəyməmiş,*
*Sinəsinə ox dəyməmiş,*
*Gözdən uzaq yurd gəzirəm,*
*Çiynimdə tabut gəzirəm.*

Bilə-bilə ki, gözdən uzaq heç nə yoxdu - ağac, ölkə, torpaq, su... Bilə-bilə ki, gözdən uzaq nə varsa (?) könüldən də uzaqdı.

Deyirsən də... başqa çarən də yoxdu axı... Amma burası da bir həqiqətdir ki, çarəni həmişə çarəsizlər tapıblar... "Suyuna dodaq dəyməmiş" ifadəsi mənim ürəyimdə dünyanın bakirəlik assosiasiyasını yaratdı. Və hesab edirəm ki, "Suyuna dodaq dəyməmiş..." deyimi Sözün ən bakirə, ən ilıq və ən uğurlu diriliyidir. Bu dirilik, böyük mənada Sözün cavanlığıdır, Sözün özünü təzəcə tanıdığı məqamın şəklidir...

*Dörd yana meydan sulayan,*
*Səsi ruhumu dalayan,*
*Axirət deyib ulayan,*
*Yalqız qalmış Qurd gəzirəm,*
*Çiynimdə tabut gəzirəm.*

Misra-misra baxaq; "Dörd yana meydan sulayan". Sən nəinki meydan sulaya bilirsən, əslində heç meydanın yoxdu və meydansızlıq ovqatından doğan, çiynindəki tabut qədər ağır bir qibtədir lirik qəhrəmanın çırpıntısı. Və bu elə bir çırpıntıdır, elə bir çırpınmadır ki, yetişmişi qala-qala kalı tökülür.

İkinci misra. "Səsi ruhumu dalayan" - dalayacaq da, çünki sənin ruhun yalquzağın səsinə sürtünə-sürtünə göyərib, bitib, qalıb.

Üçüncü. "Axirət deyib ulayan" - Yalquzaq olmaqdan bezmiş qurd axirəti və yaxud mən, o qurdun çiynində qurd tabutu gördüm - o da çiynində tabut ulayırdı, çiynində tabut gəzirdi. Bu, hara getdiyini bilməyən lirik qəhrəmanın o qurda qoşulub hara gedəcəyini bilmək istəyidir.

Şeirin axırına macal oxuduğun bu misraları eşidəndə isə özümü, ölüm-dirim arası məsafədə çırpınan, baş girləyən bəşər tarixinin doğum evində hiss elədim:

*Balalar çiçək doğulur,*
*Gül doğulur balalar.*
*Balalar göyçək doğulur,*
*... Qul doğulur balalar*
*Torpaqdan altun doğulur,*
*Daşlardan yaqut doğulur,*
*Nədənsə, şair doğulan*
*Çiynində tabut doğulur.*

Çiçək doğulan, gül doğulan, göyçək doğulan balaların içində qul doğulan balalardan da yan keçməmisən, elə dəqiq, sərrast demisən ki, elə bil onları mamaça kimi özün tutmusan, göbəklərini özün kəsib, özün bələmisən və vermisən bəşəriyyətin qucağına!!! Və demisən ki, "yarıyanlardan olsun" - qul necə yarıya bilər ki?! Ancaq Allah istəsə qul da yarıyar - ancaq qul kimi...

Əziz qardaşım Zakir Fəxri.

Torpaqdan altun, daşlardan yaqut doğulandan sonra deyirsən:

*Nədənsə, şair doğulan*
*Çiynində tabut doğulur.*

Sənin belə təəccüblənməyin məni də elə sənin qədər təəccübləndirdi - ancaq tərsinə. Sən də bilməmiş deyilsən ki, şair niyə çiynində tabutla doğulur. Çünki yer üzündəki adamlar arasında tabuta ən çox oxşayan şairlərdi. Hətta mənə elə gəlir ki, tabutu şairə baxıb düzəldiblər, ona oxşadıblar. Bu, oxşatma dəqiqdir, ən azı ona görə ki, tabuta baxıb şair "düzəltmək" mümkün deyil. Bu mənim bir versiyamdır, ancaq ikincisi də var. O da ondan ibarətdir ki, şairdən başqa çiynində tabut gəzən kim səni görsələr deyəcəklər ki, baxın, havalanıb. Ancaq şairə nə deyirlər desinlər, lap daş atsınlar. Uzaq başı çiynində gəzdirdiyi tabutun içinə girib özünü qoruya biləcək...

Şeirin sonluğunda dedin:

*Çox göynətdi ürək məni,*
*Dərdsiz ürəyə qurd düşər.*
*Silkələmə fələk, məni*
*Çiynimdəki tabut düşər!..*

Şübhəsiz dahiyanədir!

Əziz qardaşım Zakir Fəxri.

Tabut o vaxt çiynindən düşəcək ki... Yox! Düşməyəcək - vaxtı gələndə özün qoyacaqsan yerə, içinə girib qapağını örtəcəksən. Hətta bunun harda, hansı qəbiristanlıqda, kimin qəbrinin qonşuluğunda baş verəcəyini də bilirəm, ancaq yazmadım, qəddarlıq eləyə bilmədim...

Nə qədər ki, tabutu çiynindən yerə qoymamısan, deməli vaxtın var. Vaxtın əvvəlinə qayıt və atabir, anabir doğma taleyinlə qolboyun yaşa, ol. Ona görə də, əziz qardaşım Zakir Fəxri, asta yeri, tabut düşər çiynindən...

***P.S. Növbəti dəfə, yasdançıxma mərasimlərinin birində məlum üzürlü səbəbdən qulaq asa bilmədiyim iki şeirini də oxuyarsan, məmnuniyyətlə dinləyərik...***

**Mərdəkan,**
**28 noyabr, 2011-ci il**